Azərbaycan Arxeologiyası
Khazar University Press

Volume 25 № 2 2022, 93-101
DOI: 10.5782/2218-0346.2022.25.2.93

# Qobustanda məzar daşları və karvansaralar üzərində qeydə alınmış işarə və damğalar haqqında

**Sevinc Şirinli**
AMEA Arxeologiya, Etnoqrafiya və Antopologiya İnstitutu
Qobustan Milli -Tarix Bədii qoruğu
shirinova-sevinc@mail.ru
**Açar sözlər:** Qobustan, damğa, işarə, qayaüstü təsvir, Orta əsrlər.

**Giriş.** Qobustan qayaüstü incəsənəti kolleksiyasının Orta əsrlər dövrünə aid olan təsvirləri içərisində damğa və işarələr müəyyən yer tutur. Onlar Böyükdaş, Kiçikdaş, Cingirdağ-Yazılıtəpə, Şonqardağ və Şıxqaya sahələrinin qayaüstü təsvirləri arasında qeydə alınmışdır. Bu tip təsvirlərin çoxluğuna və forma müxtəlifliyinə görə Cingirdağ-Yazılıtəpə kolleksiyası xüsusilə fərqlənir. Burada 143 N-li daş üzərində 8 şəkildə 53, 123 N-li daş üzərində 20, 169 N-li daşda isə 21 damğa və işarə qeydə alınmışdır (1).

Qobustan ərazisində damğa və işarələr təkcə qayalar üzərində deyil, həm də karvansaraylar, o cümlədən, müxtəlif Orta əsrlər dövrü məzarlıqlarında qeydə alınmışdır.

**Damğa və işarələrin öyrənilməsi tarixindən.** Arxiv materiallarının azlığı, yerli əhali arasında artıq bu ənənənin sıradan çıxması Qobustanda qeydə alınmış damğaların aid olduqları nəsillərin və damğaların adlarını bərpa etməyi çətinləşdirir. Bu baxımdan 1901-ci ildə Tiflisdə dərc olunmuş məqalə maraqlıdır. Müəllif F.A. Deminski Qobustan rayonu ərazisində yerləşən kəndlər, qışlaqlar haqqında məlumat verərkən qəbir daşları üzərində çəkilmiş işarələrə də toxunmuşdur. Ərəbqədim kəndi haqqında qeydlərində onların Gicəki dağının yaxınlığında yerləşən məzarlığının 1-Nasırı ; 2-İbn Əmir ; 3-Şahbədəlli  adlanan üç fərqli hissəyə ayrıldığını bildirirdi. Adlardan sonra bu nəsillərin işarələrini də göstərən müəllif onlardan ərəbqədimlilərin öz qəbirlərini digərlərindən fərqləndirmək üçün istifadə et-diklərini yazırdı: “bunu kəndin mollası Molla Mahmud mənə xəbər verib. Bir də ümumi işarə var ki, bunu bütün ərəbqədimlilər istifadə edir. Bu işarənin mənası mənə aydın deyil” (11, 13).

Daha sonra Ərəb-Şamlılar haqda məlumat verən müəllif onların işarələrini də göstərmişdir .

Həmin işarə Qobustan qayaüstü təsvirləri arasında qeydə alınmış damğa təsvirləri ilə oxşardır. Onların əsasən maldarlıqla məşğul olduğunu bildirərək, köhnə dəfn yerlərinin Xanalı qışlağı yaxınlığında, Bey-taş ilə Kiçikdaş dağları arasında olduğunu yazırdı (11, 16). Hazırda bu yerdə yerli əhalinin Şamlı məzarlığı adlandırdığı dəfn yeri yerləşir.

Azərbaycanda damğa və işarələrin ilk dəfə elmi cəhətdən öyrənilməsi etnoqraf A.P. Fituninin adı ilə bağlıdır. O, 1924-cü ildə "Azərbaycanı Tədqiq Edən və Öyrənən Cəmiyyətin" tapşırığı ilə Şirvan zonasına səfər etmiş, Meysəri, Kələxana, Quşçu, Pirə kəndlərində qaya, tikinti qalıqlarının divarlarında və hətta ağac gövdəsində qazılmış müxtəlif formalı işarə və damğalar qeydə almışdır. Həmçinin müəllif Altıağac, Qız qalası və karvansarayın divarlarında olan işarələrin surətini çıxarmışdır (4,186).

İ.Cəfərzadə tərəfindən Qobustanda qeydə alınan qayaüstü təsvirlər arasında xeyli sayda işarə və damğalar da yer alır. O, özünün "Qobustan. Qayaüstü təsvirlər" adlı kitabında Cingirdağ-Yazılıtəpə ərazisindən üzərində müxtəlif damğa və işarələr olan 7, Böyükdaş dağı yuxarı səki sahəsində 1, aşağı səki sahəsindən isə 2 daş üzərindəki təsvirlərin surətlərini vermiş, onların xronoloji çərçivəsini X-XVIII əsrlər arasında müəyyənləşdirmiş və görünüşünə əsasən qruplaşdırmışdır (2).

1966-cı ildə C.Rüstəmov və F.Muradova tərəfindən Şirvanda aparılan tədqiqatlar nəticəsində Quşçu kəndindən qərbdə yerləşən "Abdal damı" adlanan mağaranın döşəməsində, Nabur kəndi yaxınlığında olan "Nabur bulağı"nın daşı üzərində yeni işarə və damğalar qeydə alınmışdır. Arxeoloji səfər zamanı vaxtilə A.P.Fituninin qeydiyyata saldığı işarələrin artıq silindiyi, qalmadığı müəyyən edilmişdir (5, 93-94).

Mövzu ilə bağlı F.Muradovanın "Şirvan zonasında aşkar edilmiş işarə və damğalar", "Azərbaycanda daşlar üzərində qazılmış işarə və damğaların öyrənilməsinə dair" adlı məqalələrində təkcə qayaüstü təsvirlər arasında olan işarə və damğalar yox, Böyükdaş dağı qəbirstanlığı, Kiçikdaş sahəsində yerləşən Qaraatlı pirinin məzarlığında, Sofi Həmid piri və məzarlığında, Sofi Novruz piri və qəbirstanlığında qeydə alınmış 150-dən çox işarə və damğalar haqqında geniş məlumat verilmiş, onların xronoloji çərçivəsi, çəkilmə texnikası və formaları barədə elmi müddəalar öz əksini tapmışdır (5, 95-102)

Həmçinin C.Rüstəmov özünün “Qobustan dünyası” adlı kitabında damğa və işarələr haqda məlumat vermiş, onların semantikası haqqında fikirlər söyləmişdir (9, 114-115). Onun F.Muradova ilə birgə hazırladıqları Şonqardağ və Şıxqaya abidələri kitabında Şonqardağ sahəsindən 30, Şıxqaya zonasından 1 damğa təsvirinin surəti, təsvirlərin ölçüləri və digər məlumatlar əks olunmuşdur (8). Kiçikdaş dağı üzrə isə digər sahələrlə müqayisədə daha az işarə və damğa qeydə alınmışdır.

N.Müseyiblinin Qobustan və Gəmiqaya abidələrindəki damğa və işarələrin müqayisəli təhlilinin özündə əks etdirən “Azərbaycanın qayaüstü işarələri və damğaları” (Qobustan və Gəmiqaya materialları əsasında) adlı elmi işi bu problemə həsr olunmuş, həmçinin müxtəlif məqalələrində bu mövzuya toxunmuşdur (7).

M.Fərəcovanın “Azərbaycan qayaüstü incəsənəti” adlı əsərinin “Damğa və işarələr” adlanan bölməsində tarixi daha qədim dövrə aid edilən işarələrin tədqiqi ilə yanaşı Orta əsrlər dövrünə aid edilən damğa və işaələr haqqında məlumat da öz əksini tapır (3, 47).

**Məzar daşları üzəində qeydə alınmış damğa və işarələr.** Yuxarıda da qeyd etdiyimiz kimi bu gün də Böyük Qobustan ərazisində vaxtı ilə fəaliyyət göstərmiş çoxsaylı qışlaq yerlərinin izlərinə rast gəlinir. Onların demək olar ki, böyük əksəriyyətinin yaxınlığında üzərində damğa və ya həndəsi, nəbati, zoomorf təsvirlər həkk olunmuş müxtəlif formalı qəbir abidələrinin yer aldığı məzarlıqlar yerləşir.

Böyükdaş dağının cənub-şərqində yerləşən məzarlıqdakı baş daşlarının qərb üzündə iti alətlə çəkilmiş 11 cür 35 ədəd işarə qeydə alınmışdır. İşarələrdən əksəriyyətinin baş hissəsi dördkünc və ya dairəvi formada olub aşağıya doğru şüa şəkilli xətlər çəkilmişdir. Digər qrupa içərisi xətlərlə müxtəlif hissələrə bölünərək təkəri xatırladan və ya nöqtələrlə bəzədilmiş damğalar aiddir (5, 96-97) (şəkil 1). Qobustanda bu tip təsvir Cingirdağ-Yazılıtəpə ərazisində yerləşən 12, 14 N-li daşlar üzərində də vardır. İ.Cəfərzadə tərəfindən kult xarakterli kompozisiya kimi qiymətləndirilən bu təsvirlər e.ə. I minilliyin ortalarına aid edilir (1, 28). Günəşin qrafik təsvirinə bənzəyən bu işarələrin qəbir daşları üzərində çəkilməsi görünür astral görüşlərlə əlaqədar ola bilərdi. Ümumiyyətlə təkər formalı təsvir günəşin sxematikləşmiş simvollarından biridir. Bu işarə günəşin səmada “hərəkətinin” ifadəsi kimi çıxış edir. Təsadüfi deyil ki, günəşin şərəfinə keçirilən bayramlarda onun hərəkətinin simvolik ifadəsi kimi yanan təkəri təpə üzərindən diyirlədirdilər (7, 26).

Qeyd edəki ki, bu tip işarələr Qobustanda e.ə. III minilliyə aid edilən 1 nömrəli kurqandan aşkarlanmış daş üzərində də vardır (6, 54). Böyükdaş dağının ətəyində yerləşən məzar daşları üzərində qeydə alınmış eynək formalı damğaya isə Qobustan qayaüstü təsvirləri arasında rast gəlinməmişdir.

**Qaraatlı piri məzarlığı.** Kiçikdaş dağının cənub-şərq qurtaracağında yerləşən bu məzarlıq kiçik sahəni əhatə edir. Hazırda da yerli əhali arasında pir kimi öz mövqeyini qoruyub saxlamış bu məzarlıqda yaxın yerlərin sakinləri və qışlağa gələn maldarlar öz ölülərini dəfn edərmişlər. Pirin əfsanəsinin yaranmasında məzarlıqda yerləşən qara at fiquru əsas rol oynamışdır. Qaraatlı əfsanəsinə görə dinsizlərin təqibindən qaçan mömin sərkərdə buraya çatanda atdan düşüb yaxınlıqdakı qayalıqlarda gizlənmiş və qeybə çəkilmişdir. Onun qara atının başı təqibçilər tərəfindən kəsildikdən sonra at daşa dönmüşdür (9, 120-121). Məzarların bir qismi sənduqə formalı olsada, digərlərinin üzəri iri əhəngdaşı parçaları ilə örtülmüşdür. Bəzi qəbir daşlarının isə yer üstü işarəsi artıq yoxdur. Burada qeydə alınmış təsvirlər əvvəlki damğalarla oxşar olub baş daşlarına iti metal alətlə çəkilmişdir.

**Sofi Həmid piri və qəbirstanlığı.** Səngəçal dəmir yolu stansiyasından 7-8 km. şimal-şərqdə yerləşir. Pirin ətrafında geniş sahəni əhatə edən qəbirstanlıqdakı bəzi qəbirlər üzərində də iti metal alətlərlə qazılmış 4 şəkildə işarələr qeydə alınmışdır. Onlardan birincisinin baş hissəsi dördkünc formada olub, aşağı hissəsi üçdiş yabanı xatırladır. İkinci işarə də birinci ilə oxşar quruluşda olub yalnız baş hissəsinin dairəvi forması ilə fərqlənir. 3-cü və 4-cü işarələr nəfis işlənmiş bir qəbir daşının güzgüsündə süvari, ox və yay təsvirlərinin üstündə qazılmışdır. Arxeoloq F. Muradova işarələrin hər ikisinin dəfn olunanın nəsli və ya dini mənsubiyyətini ifadə etdiyini yazır (5, 99) (şəkil 2).

**Sofi Novruz piri və qəbirstanlığı.** Qobustan qəsəbəsindən Umbakı yolu ilə, sonra köhnə torpaq yolla qərbə, Qaynarça adlı yerdən keçməklə Ərəbqədim və Mərəzəyə gedən yolla 50 km məsafədə, kiçik dağın cənub ətəyində yerləşir (9, 123). Pirin sol tərəfində geniş sahəni əhatə edən qəbirstanlıq var. Sağda dağa tərəf hissədə yerləşən məzarlıq isə təzədir, burada yalnız bir neçə yerdə köhnə məzar daşlarına rast gəlmək mümkündür. Kənd sakinlərinin dediyində görə qarşıdakı böyük təpənin arxasında yerləşən Nardərən və Ərəbqədim kəndlərinin əhalisi vəfat edən şəxslərini burada dəfn edərmişlər. Qəbir daşlarının qərb üzündə metal alətlə işarələr çəkilmişdir. Burada ümumilikdə 27 şəkildə 85 ədəd işarə siyahıya alınmışdır (5, 99-100). Qeydə alınmış işarələr daha çox həndəsi və nəbati xarakter daşıyır (şəkil 3).

Bəzi qəbir daşlarının üzərində dairə, dördbucaq, tor şəklində çəkilmiş işarələr vardır. Yalnız bir məzar daşı üzərində Qobustan qayaüstü təsvirlərində geniş yayılımış dairəvi başlıqdan aşağıya doğru 3 şaquli xətt çəkilmiş damğaya rast gəlinmişdir.

**Cingirdağın cənub yamacında.** Üzərində damğa və işarələrin təsvir edildiyi Orta əsr məzarlıqlarından biri yerləşir. Buradakı qəbir daşlarının bir çoxunun səthinin torpaqla örtülməsi işarələrin qeydə alınmasını çətinləşdirir. Qeydə alınmış işarələr əvvəlkilərlə oxşar olub dairəvi başlıqdan aşağıya doğru 3 xətt çəkilmişdir. Məzar daşları üzərindəki bu işarələr ölçüsünə görə fərqli olub döymə və oyma texnikası ilə yerinə yetirilmişdir. Xüsusilə daşlardan birinin üzəri qeyd etdiyimiz işarədən əlavə tor şəkilli xətlərlə də bəzədilmişdir. Qəbir daşlarının baş hissəsi dairəvi formada hazırlanaraq bəzilərində ortadan çəkilmiş xətlə yarıya bölünmüşdür. Bənzər hal Sofi Novruz piri qəbirstanlığındakı məzar daşlarında da vardır (şəkil 4).

**Ütəlgi məzarlığı.** Damğa təsvirinin qeydə alındığı məzarlıqlardan biri də yaxınlıqdakı qışlaqların sakinləri tərəfindən Ütəlgi adlanan ərazidə yerləşir. Qeyd edək ki, Ütəlgi qızılquş fəsiləsinə aid quş növüdür (13). Ümumiyyətlə Qobustan ərazisində müxtəlif quş adları ilə bağlı zootoponimlər qeydə alınmışdır ki, (Şonqar, Torağay, Kərkəz) bu da maraq doğuran məsələlərdən biridir. Vaxtilə Ütəlgi qışlağı adı ilə tanınan bu yerdə yarımqazma tipli tikililərə, saxsı qab qırıqlarına indi də rast gəlmək mümkündür. Çox da böyük olmayan ərazini əhatə edən məzarlıqda sənduqə formalı, yalnız baş daşının olduğu və üzəri daşlarla örtülü müxtəlif ölçülü qəbir abidələri vardır. Onlardan birinin baş daşı üzərində yuxarıda da qeyd etdiyimiz Qobustan qayaüstü təsvirlərində qeydə alınmış damğa təsvir olunmuşdur. Sənduqə formalı məzar daşlarından biri 69 xanadan ibarət mərkəzində nöqtə olan kiçik xanalara bölünmüşdür, digərinin üzərində olduqca sxematik göstərilmiş süvari (?), üçüncüdə isə həndəsi formalı təsvir vardır.

Sonuncuların üzəri mamırla tamam örtülmüşdür ki, bu da onların qeydiyyatını çətinləşdirir. Digər maraq doğuran nümunələrdən biri sanki tərsinə çevrilmiş şəkildə olan zoomorf formalı məzar daşıdır (şəkil 5).

Orta əsrlərdə qoyun, qoç, at formalı məzar daşlarının geniş yayıldığı digər abidələrdən də məlumdur. Yardımlı, Lerik, Kəlbəcər, Fizuli, Naxçıvan, Qazax rayonlarında qeydə alınmış daş qoç heykəlləri üzərində damğa, qılınc, xəncər, qayçı təsviri vardır. Laçının Malıbəyli kəndindən tapılmış XV-XVIII əsrə aid at heykəlinin, XIV əsrə aid edilən digər at heykəlinin sol ayağına vurulmuş damğa sözsüz ki, mərhumun bu və ya digər tayfaya mənsubiyyətini

ifadə edirdi (12, 43). Ütəlgi məzarlığındakı çox da böyük olmayan bu daş da ola bilsin ki, qoyun və ya qoç formasında olmuşdur.

**Hacı Molla Vəli qışlağının məzarlığı.** Hacı Molla Vəli qışlağı Cəbirli tayfasından olan ailəyə məxsusdur. Cingirdağın ətrafında Cəbirli tayfasına məxsus ən azı 9 qışlaq yerləşir. Cingirdağın yaxınlığında, Kənizə palçıq vulkanının ətəyində hündür təpə üzərində yerləşən Molla Vəli məzarlığında sənduqə formalı məzar daşları ilə yanaşı üzərində ərəb əlifbası ilə tarix və ad yazılmış qəbir daşları da vardır. Sənduqələrdən birinin üzərinə sıra ilə düzülmüş zoomorf təsvirlər çəkilmişdir, digərləri isə həndəsi naxışlarla bəzədilmişdir. Yalnız bir başdaşı üzərində damğa təsviri vardır (şəkil 6).

**Səngəçal və Miəcik karvansaraları üzərində qeydə alınmış işarə və damğalar** Azərbaycanda damğa və işarələr məzar daşları və qayalarla yanaşı müxtəlif memarlıq abidələrinin üzərində də qeydə alınmışdır. Məqalədə iki karvansara üzərində qeydə alınmış damğa və işarələr tədqiqata cəlb edilmişdir.

Səngəçal karvansarası Səngəçal qəsəbəsində, şose yolunun sağ tərəfində yerləşir. Üzərindəki kitabəyə əsasən Şirvanşah Xəlilullahın dövründə 1439-cu ildə tikildiyi güman edilir (9, 33). Bu karvansara üzərində təxminən 6 şəkildə damğa və işarə vardır. Onlar giriş qapısının üzərində və yan divarlarda olmaqla çəkilmişdir. **П** formalı və dairəvi başlıqlı işarələr Qobustan qayaüstü təsvirlərində (Cingirdağ və Şonqardağ kolleksiyaları) qeydə alınmış təsvirlərlə oxşar olsa da digərləri fərqlidir (şəkil 7).

Miəcik karvansarası Sofi Həmid pirinin yanından keçib qərbə, Şamaxıya gedən qədim yolun üstündə yerləşir (8, 33). Digəri ilə müqayisədə bu karvansara daha böyük olub üzərindəki damğa və işarələr də sayca çoxdur (şəkil 8). Burada işarələr həm karvansaranın giriş hissəsində, həm də daxili divarlara çəkilmişdir. İşarələrdən əlavə burada süvari, sxematik çəkilmiş dəvə və antropomorf təsvirlər də vardır. İşarələr arasında dairəvi başlıq və 3 xətdən ibarət olanlar üstünlük təşkil edir. Həmin işarənin müəyyən fərqlərlə müxtəlif formaları divarlar üzərində əks olunmuşdur. Bundan əlavə burada Qobustan qayüstü təsvirləri arasında qeydə alınmış **П** (Cingirdağ 143, Şonqardağ 4-cü sahə, 2 və 4 n-li qayalar;) və nal formalı (Cingirdağ 143, Şonqardağ 4-cü sahə, 5-ci sahənin 1-ci qrupundakı 1 n-li qaya) təsvirlər də vardır (1; 7), (8, 27-29).

Miəcik karvansarasında diqqət çəkən cəhətlərdən biri də bəzi işarələrin tərsinə çevrilmiş formada çəkilməsidir. Belə ki, Qobustan qayaüstü təsvirləri arasında geniş yayılmış dairəvi əsasdan aşağıya doğru şaquli xətlər

çəkilmiş damğa burada tərsinə çevrilmiş haldadır. **"П"** və nal formasında təsvir olunmuş işarələr də tərsinə, sola istiqamətli və ya üfüqü xətt işarənin yuxarısında deyil aşağı və ya yan hissələrdə göstərilmişdir. Əgər bu hal üstünlük təşkil etsəydi bəlkə də üzərində damğa çəkilmiş daşların daha öncə hansısa tikilinin üzərində olmasını, sonradan karvansaranın tikintisi zamanı onların vəziyyətinə fikir verilmədən istifadə edildiyi ehtimalını irəli sürə bilərdik. Lakin bu halın digər təsvirlər üçün xarakterik olmaması, yalnız bir neçə damğanın sanki "tərsinə çevrilmiş" vəziyyətdə təsvir edilməsi və oxşar halın qayalar üzərində də müşahidə edilməsi bu fikri şübhə altına salır. Fikrimizcə bu həmin işarələrin əsas ailədən ayrılan digər ailə qruplarına məxsus olması ilə əlaqəlidir və onlar sonradan qəbul edilmiş sahibləri tərəfindən ilkin damğadan fərqləndirilmək üçün bu cür təsvir olunmuşdur.

Belə ki, sadə formaya malik olan kök və ya əsas damğa daha qədim hesab olunur. Ənənəvi olaraq damğa-işarələr sadə və dəyişməz formada olurdular. Əlavə xətlər sonradan əsas damğaya əlavə olunur və ya ilkin formasını saxlamaqla onun vəziyyətini dəyişirdilər. Sonradan bir ailədən daha kiçik ailələr ayrıldıqca onlar əsas damğanı saxlamaqla ona əlavələr artırılırdı. Altay türklərində indiyə qədər qorunan adətə görə damğalar dəyişməyən əsas "ürək" və ona əlavə edilən "quyruq", "qanad", "ayaq" hissələrindən ibarət olurdu (10, 12).

**Nəticə.** Beləliklə Qobustanın Orta əsrlər dövrünə aid edilən damğa və işarələri haqqında yuxarıda qeyd olunanları yekunlaşdırıb aşağıdakı şəkildə qruplaşdırmaq olar:

a) Damğa - Mülkiyyət göstəricisi kimi. Damğaların böyük əksəriyyəti ərazi, otlaqlar, heyvanlar üzərində fərdin, ailənin, qrupun mülkiyyət hüququnun göstəricisi kimi çıxış edirlər. Həmçinin ümumilikdə daşına bilən əşyalar silahlar, bəzəklər üzərindəki damğa təsvirləri də onların bu vəzifəsi ilə əlaqələndirlir.

b) Damğa-İştirak göstəricisi kimi. Məlumdur ki, damğaların bir çoxu memarlıq abidələrinin-karvansaraların, türbələrin divarlarına həkk edilib. Bu halda həmin memarlıq kompleksinin kiməsə mənsubluğu nəzərdə tutulmur. Görünür bu damğalar müxtəlif ailə və ya icma üzvlərinin bu ərazidə olduğunu göstərmək xarakteri daşımışdır. Xüsusilə də bu zaman onların təsvir edilməsi üçün karvansaraların giriş qapısının ətrafında, rahat görünə bilən yer seçilmişdir. Bu ərazilərin ziyarəti memarlıq abidələrinin daşları üzərində bəlkə də siyasi, hərbi və ya dini məna daşıyan damğaların çəkilməsi ilə müşahidə olunmuşdur.

c) Damğalar - Mənsubiyyət göstəricisi kimi. Qeyd etdiyimiz kimi damğaların bir qismi qəbirüstü abidələr üzərində qeydə alınmışdır. Bu halda həmin damğaların mərhumun nəslini, ailəsini işarə etdiyi məlumdur.

ç) Damğalar - Təcrübə vəzifələrini qeyd etməklə yanaşı, damğaların həm də “müqəddəs” mənalı təsvirlər olduğunu istisna etmək olmaz. Görünür bu təsvirlər mənsub olduğu qruplar üçün “mühafizə edici” xarakterli amulet kimi çıxış etmiş, əmin-amanlıq naminə bu təsvirləri qayalar üzərinə həkk etmişlər.

## Ədəbiyyat

1. Abdullayev R., Şirinli S. Cingirdağ-Yazılıtəpə və Sona qaya petroqliflərinin korpusu. Bakı: İdeal-Print, 2020, 510 s.
2. Cəfərzadə İ.M. Qobustan qayalarında təsvirlər. Bakı:YNE XXI, 1999, 259 s.
3. Fərəcova M. Azərbaycan qayaüstü incəsənəti. Bakı: ASPOLİQRAF, 2019, 309 s.
4. Muradova F.M. Azərbaycanda daşlar üzərində qazılmış işarə və damğaların öyrənilməsinə dair // Azərbaycanın maddi-mədəniyyəti, VII c., Bakı: Elm, 1973, s. 185-189.
5. Muradova F.M. Şirvan zonasında aşkar edilmiş işarə və damğalar // Azərbaycanın maddi-mədəniyyəti, VIII c., Bakı: Elm, 1976, s.93-134.
6. Muradova F.M. Qobustanın tunc dövrü abidələrindən rəsmli daşlar // Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı: Nafta-Press, 2003, s. 47-54.
7. Museyibli N.Ə. Qobustan və Gəmiqaya təsvirlərində işarə və damğalar // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2003, s. 25-31.
8. Rüstəmov C.N., Muradova F.M. Qobustan petroqlifləri. Şonqardağ və Şıxqaya qayaüstü rəsmləri. I c., II kitab. Bakı: Koorperasiya, 2003, 120 s.
9. Rüstəmov C.N. Qobustan dünyası. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1994, 173 s.
10. Kidiralı D., Babayar G. Türk bengü taşı: Şiveet-Ulaan damgalı anıtı. Astana: Gılım, 2015, 78 s.
11. Деминский Ф.А. Некоторые сведения о Кабристанском полицейском участке Шемахинского уезда Бакинской губернии // Записки Кавказского отд. импер. руского географич. общ. Кн. XXII; Вып. 2-й Тифлись, 1901. 70 с.
12. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Арабо-персо-тюркоязычные надписи Нахичеванской Автономной Республики (XII - начала XX века). Т.III., Баку: XXI-YNE, 2001, 216 с.
13. https://eol.org/pages/45514168/articles?locale_code=az

## Summary

### The signs and tamgas regestered on gravestones and caravanserais in Gobustan

### Sevinj Shirinli

Part of Gobustan's collection of Medieval rock carvings includes various shapes of tamgas and signs. In Gobustan, tamga-type signs are obtained not only on the rocks, but also on tombstones in Boyukdash mountain cemetery, Garaatli cemetery on Kichikdash mountain, Sofi Hamid sanctuary and Sofi Novruz sanctuary cemetery, in cemeteries near settlements once used as winter pastures, as well as Sangachal and Miajik caravanserais.Tamga and signs are very informative resources for covering certain issues of Medieval history, by having a large, widespread geography and involving archeological and epigraphic materials.The article provides information about the semantics and chronology of the tamgas and signs recorded in a number of cemeteries in Gobustan.

**Key words :** Gobustan, tamga, sign, rock art, Medieval.


## Резюме

### Об символах и тамга обнаруженных на надгробных камнях и каравансараях в Гобустане

### Севиндж Ширинли

В состав коллекции Средневековых наскальных рисунков Гобустана входят печати и символы различной формы. В Гобустане символы по типу тамга встречаются не только на скалах, но и на надгробиях кладбища на горе Беюкдаш, кладбища Гараатлы на горе Кичикдаш, кладбищах в Софи Хамид пири и Софи Новруз пири, на кладбищах близ поселений, использовавшихся как зимние пастбища, а также на Сангачальском и Миаджикском каравансараях. Тамга и символы - очень информативные ресурсы, освещающие определенные вопросы средневековой истории, имеющие обширную географию распространения и включающие археологические и эпиграфические материалы. В статье представлена информация о семантике и хронологии тамга и символов, зафиксированных на ряде кладбищ, расположенных на территории Гобустана.

**Ключевые слова**: Гобустан, тамга, знак, наскальное искусство, Средневековый.